04-05 oktyabr 2012-ci il tarixlərində Bakı şəhərində keçirilmiş II Bakı Beynəlxalq Humanitar Forumda qloballaşmaqda olan dünyanın reallıqlarını nəzərə almaqla humanitar problemlər, perspektivlər və çağırışlar muzakirə edilmiş, təbiət, iqtisad və humanitar elmləri, mədəni elitanı təmsil edən Forumun təşkilatçıları gələcəkdə beynəlxalq miqyasda nəzərə alınması vacib olan yeni humanitar gündəliyin formalaşması məsələsini qarşıya qoymuşlar.

Forum çərçivəsində plenar iclasın, bir neçə istiqamətlər üzrə "dəyirmi masa"ların təşkilində və keçirilməsində Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor Şəmsəddin Hacıyev, Bakı Dövlət Universitetinin rektoru, AMEA-nın həqiqi üzvü Abel Məhərrəmov, Bakı Slavyan Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Kamal Abdullayev, Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Jalə Qəribova yaxından iştirak etmişlər. Onlar Foruma dəvət olunan bir çox xarici qonaqları, o cümlədən xarici ölkələrin keçmiş prezidentləri, Nobel mükafatı laureatları ilə öz universitetlərində görüşlər keçirmiş, onlara fəxri adlar və Azərbaycanı təcəssüm etdirən qiymətli hədiyyələr vermişlər.

II Bakı Beynəlxalq Humanitar Forumunun yüksək səviyyədə keçirilməsində aktiv fəaliyyətlərini nəzərə alaraq

**ƏMR EDİRƏM:**

1. Aşağıda adları çəkilən universitetlərin rəhbər işçilərinə Təhsil Nazirliyinin təşəkkürü elan edilsin:

| | |
|---|---|
| Məhərrəmov Abel Məmmədəli oğlu | Bakı Dövlət Universitetinin rektoru; |
| Hacıyev Şəmsəddin Hümmət oğlu | Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru; |
| Abdullayev Kamal Mehdi oğlu | Bakı Slavyan Universitetinin rektoru; |
| Qəribova Jalə Əhməd qızı | Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru |

***Misir MƏRDANOV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***11 oktyabr 2012-ci il***